

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 54 (23.216)

*19 mart 2019-cu il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Süheyl Məhəmməd əl-Məzruini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu, əməkdaşlığın yeni sahələri, o cümlədən turizm sahəsini əhatə etməsindən məmnunluğunu bildirib. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artdığını vurğulayan Prezident İlham Əliyev bunu dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirib.

Söhbət zamanı "OPEC plus" formatında Bakıda keçirilən tədbirlərin əhəmiyyətinə toxunulub, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında enerji, neft-qaz, neft-kimya, bərpa olunan enerji, müxtəlif iqtisadi layihələr sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 16 mart tarixli Sərəncamı ilə miqrasiya orqanlarında qulluqda fərqləndiklərinə və səmərəli fəaliyyət göstərdiklərinə görə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları da vardır.

**Ələsgərli Nurlan Azər oğlu**

**Sadiqov Samir Hüseyn oğlu**

"Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

# Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

1.1. dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin icbari tibbi sığorta sisteminə inteqrasiyasının təmin olunması, onlarda informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə müvafiq proqram təminatının yaradılması, habelə həmin tibb müəssisələrinin yeni maliyyələşmə mexanizmləri əsasında 2020-ci ildən tam fəaliyyətə başlamasının təmin edilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin nümayəndəsinin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, habelə digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət komissiyanın yaradılmasını təmin etsin;

1.2. bu Fərmanın 2.3.1-2.3.3-cü yarımbəndlərində nəzərdə tutulan tapşırıqların icrasının təmin edilməsi məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə müvafiq kömək göstərilməsini, onların müraciəti əsasında zəruri maliyyələşməni, normativ hüquqi aktların qəbulunu, habelə 2019-cu il ərzində malların (işlər və ya xidmətlərin) satın alınmasını təmin etsin;

1.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi:

2.1. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə icbari tibbi sığortaya daxil olan tibb müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi, fəaliyyətinin optimallaşdırılması, habelə daha səmərəli idarəetmə üsullarının tətbiq edilməsi ilə bağlı təklifləri hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq muxtar respublikada icbari tibbi sığorta fondunun vəsaitinin idarə edilməsini və icbari tibbi sığorta üzrə sığortaolunan şəxslərə tibbi xidmətlərin həmin fondun vəsaiti hesabına göstərilməsini təmin etsin;

2.3. 2020-ci ildən etibarən icbari tibbi sığorta sisteminin Naxçıvan Muxtar Respublikasının bütün ərazisində tətbiqinə imkan verəcək hazırlıq işlərini, o cümlədən aşağıdakıları təmin edən tədbirlər görsün:

2.3.1. icbari tibbi sığortanın məlumat bazasının yaradılmasını və dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin həmin məlumat bazasına inteqrasiyasını;

2.3.2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin informasiya resurslarının icbari tibbi sığortanın tətbiqini təmin edəcək hədlərdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin informasiya resurslarına inteqrasiyasını və qarşılıqlı məlumat mübadiləsinin tətbiqini;

2.3.3. icbari tibbi sığortanın tam şəkildə həyata keçirilməsi üçün lazım olan normativ hüquqi aktların, o cümlədən tibbi protokolların və digər sənədlərin tətbiqini;

2.3.4. icbari tibbi sığorta çərçivəsində göstərilən xidmətlər zərfi və tibbi xidmətlərin tarifləri barədə təkliflərin hazırlanmasını və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edilməsini;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Vergilər Nazirliyi "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-10-cu maddəsində nəzərdə tutulan icbari tibbi sığorta üzrə sığorta haqlarının yığılmasına nəzarəti təmin etsinlər.

4. Aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları icbari tibbi sığortanın tətbiqi, habelə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanunundan irəli gələn məsələlərin Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsi ilə bağlı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə müvafiq köməklik göstərilməsini təmin etsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 mart 2019-cu il*

# Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib



*Kollegiyada ailə-məişət zəminində törədilən cinayətlərin və muxtar respublikanın avtomobil yollarında nəqliyyat qəzalarının baş verməsinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib.*

İclası giriş sözü ilə Naxçıvan Muxtar Respublikası daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla həyata keçirilən siyasi strategiya muxtar respublikada dayanıqlı xarakter almış ictimai-siyasi sabitlik daxili işlər orqanlarının fəaliyyətinə əlverişli şərait yaradıb, eyni zamanda üzərimizə daha ciddi məsuliyyət qoyub. Muxtar respublika rəhbəri tərəfindən Daxili İşlər Nazirliyinin qarşısına qoyulan tələb və tövsiyələr əldə rəhbər tutularaq 2019-cu ilin ötən dövrü ərzində cinayətkarlıqla mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində qanunvericiliklə müəyyən edilmiş vəzifələr layiqincə yerinə yetirilib.

Nazirliyin İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Eləşrəf İbrahimov bildirib ki, keçirilən islahatların və struktur dəyişikliklərinin əsas istiqamətlərindən biri məhz cinayətlərin qarşısının vaxtında alınması, onları doğuran səbəblərin aradan qaldırılmasıdır. Profilaktik işin ən effektli yollarından biri isə polisin əhali ilə sıx təmasda olması, maarifləndirici tədbirlər keçirməsidir.

Qeyd olunub ki, ailə münaqişəsi zəminində baş verə biləcək cinayətlərin qarşısının vaxtında alınması, profilaktikasının təmin edilməsi məqsədilə 22 iyun 2010-cu il tarixdə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Muxtar respublikamızda həmin qanunun icrası istiqamətində görülən profilaktik tədbirlər nəticəsində, 2019-cu ilin müvafiq dövrü ərzində muxtar respublikamızda ailə məişət zəminində hər hansı hüquqpozma və cinayət hadisəsi qeydə alınmayıb.

Sonra Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi səlahiyyətlərini müvəqqəti icra edən polis polkovniki Rəşad Seyidov, Naxçıvan Şəhər Polis İdarəsinin rəisi, polis polkovnik-leytenantı Mirzə Cəlilov, Babək Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Teymur Quliyev, Culfa Rayon Polis Şöbəsinin rəisi səlahiyyətlərini müvəqqəti icra edən polis polkovnik-leytenantı Siyam Hacıyev və Şərur Rayon Polis Şöbəsinin rəisi, polis mayoru Nəriman İbrahimov çıxış ediblər.

Sonra general-leytenant Fazil Ələkbərov çıxış edərək vurğulayıb ki, həyata keçirilən tədbirlərin yüksək səviyyədə təmin olunmasına baxmayaraq, cinayətkarlığın dinamikasına neqativ təsir göstərən ən böyük amillərdən biri, potensial cinayət mənbəyi olan münaqişəli ailələr daxilində törədilə biləcək hadisələrin qarşısının alınması istiqamətində məlumatların əvvəlcədən əldə edilməsi hələ də lazımi səviyyədə təşkil olunmayıb. Nəticədə, bir çox hallarda hadisə törəndikdən sonra həmin ailələrdə uzun müddətdən bəri münaqişələrin mövcud olduğu ortaya çıxır ki, bu hallar qətiyyən qəbuledilməzdir.

Müvafiq dövr ərzində əldə olunan nailiyyətlər və həyata keçirilmiş tədbirlər qənaətbəxş hesab olunsa da, polis sahə inspektorları bu kimi hadisələrə qarşı profilaktikanın müasir metod və üsullarından geniş istifadə etməli, baş verə biləcək hadisələrin qarşısının vaxtında alınması istiqamətində münaqişəli ailələrin uçota alınması vəziyyəti mütəmadi təhlil edilməli, bu ailələrlə tez-tez görüşülməli, onlarla profilaktik söhbətlər aparılmalıdır. Həmçinin gələcəkdə baş verə biləcək cinayətlərin qarşısının alınmasında, qabaqlayıcı-profilaktik tədbirlərin həyata keçirilməsində və münaqişəli ailələr arasında aparılan maarifləndirmə işlərində polis sahə inspektorları ailələrin yaxın qohumları, digər nüfuzlu şəxslərin birgə fəaliyyətini təşkil etməli, geniş maarifləndirmə tədbirləri aparmalıdırlar.

Qeyd olunub ki, görülən tədbirlər nəticəsində müvafiq dövr ərzində ölümlə nəticələnən heç bir yol-nəqliyyat hadisəsinin qeydə alınmaması müsbət göstəricidir. Bu, yol hərəkəti təhlükəsizliyi sahəsində profilaktik tədbirlərə daha geniş yer verilməsinin nəticəsidir. Belə ki, son vaxtlar təbliğat məqsədilə səsli mətnlər hazırlanaraq elektron kartlara köçürülüb, ictimai nəqliyyat vasitələrinin sürücüləri ilə izahedici söhbətlər aparılaraq gündəlik marşrutlarda həmin səsyazıları anons etmələri tapşırılıb. Bundan əlavə, piyadaların maarifləndirilməsi məqsədilə bukletlər paylanılıb, mütəmadi olaraq kütləvi informasiya vasitələrində hüquqi-maarifləndirmə tədbirləri aparılıb.

Nazir diqqətə çatdırıb ki, yol hərəkəti təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması üçün konstruksiyasında dəyişiklik edilmiş nəqliyyat vasitələrinin yol hərəkətində iştirakına məhdudiyyət qoyulmalı, bu sahədə inzibati xətaya yol vermiş şəxslər barəsində qanunauyğun tədbirlər görülməlidir. Piyadaların vurulması ilə nəticələnən yol qəzalarının səbəb və şəraiti təhlil edilərək düzgün nəticə çıxarılmalı, piyadaların yol hərəkəti intizamına cəlb edilməsi üçün polisin qüvvə və vasitələrindən səmərəli istifadə olunmalıdır. Dayanma-durma qaydalarına əməl etməyən nəqliyyat vasitəsi sürücülərinin inzibati məsuliyyətə cəlb olunması sahəsində "Təhlükəsiz şəhər" videomüşahidə kameralarının imkanlarından istifadə olunmalıdır. Xidməti fəaliyyətin günün tələbləri səviyyəsində qurulması və təbliğat işləri davam etdirilməli, yol-nəqliyyat hadisələrinin baş verməsinə şərait yaradan qayda pozuntularına qarşı barışmaz mübarizə aparılmalı, qəza şəraitli yolların mütəmadi müayinəsi həyata keçirilməli, korlanmış yol nişanlarının yenisi ilə əvəz olunması üçün Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi qarşısında vəsatət qaldırılmalıdır. Nəqliyyat vasitələrini sərxoş vəziyyətdə və yüksək sürətlə idarə edən sürücülərə qarşı mübarizə tədbirləri qətiyyətlə həyata keçirilməlidir.

Sonda qeyd olunan məsələlərlə bağlı, kollegiyanın qərar layihəsi qəbul olunub.

Kollegiyaya Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***



Naxçıvan Muxtar Respublikası – 95

# Naxçıvan Azərbaycanda Avropa şəhərlərini xatırladan məkandır

*Diaspor.info* saytının məlumatına görə, bu günlərdə Ukrayna Respublikasında yaşayan bir çox diaspor təşkilat rəhbərləri Azərbaycanda olublar. Onlardan bir neçəsi Azərbaycanın Şərq Qapısı sayılan, qədim tarixi ilə seçilən Naxçıvan Muxtar Respublikasına da səfər ediblər.

Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü, Regionda Media və Cəmiyyət Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri, *diaspor.info* saytının təsisçisi və baş redaktoru, MDB ölkələri arasında diaspor təşkilatlarının fəaliyyətinin monitorinqini aparan Əlmaniz Ələkbərli də qonaqlar arasında olub. Saytımızın Azərbaycan bürosu, əslən Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan və hazırda Kiyevdə yaşayan Əlmaniz Ələkbərli ilə həmsöhbət olub.

**– Siz bir neçə gündür ki, Azərbaycandasınız, xüsusən də Naxçıvan Muxtar Respublikasında olmusunuz. Azərbaycanda hansı yeniliklərlə rastlaşdınız?**

– Mən bir il öncə Naxçıvanda olmuşdum. Naxçıvan təkcə özünün əzəmətli dağları, Əlincə qalası və yaxud Batabatı, Əshabi-Kəhfi ilə öyünmür. Bu gün Naxçıvan elə sürətlə inkişaf edir ki, onu tanımaq olmur. Naxçıvanda gəzərkən bir daha əmin oldum ki, bura bir Avropa şəhəridir. Bəli, yanılmadınız, Avropa şəhəri.

Bəlkə də, Azərbaycanda yaşayanlar ölkəmizdə gedən sürətli inkişafı elə də hiss etmirlər. Lakin biz qonaqlar ildə bir dəfə Vətənimizə gələrkən gördüyümüz xeyli yeniliklərdən bu qənaətə gəlirik. Mən bir çox Avropa ölkələrində olmuşam. Almaniya, İsveçrə, Hollandiya, Avstriya və sair. Almaniyanın Köln şəhərində gördüyüm bir çox şeyləri Naxçıvanda da gördüm. Burada bir az da daha artığını gördüm. Məsələn, mən heç bir dövlətdə rast gəlməmişəm ki, köhnə binaların dövlət tərəfindən fasadları təmir olunan zaman vətəndaşların pəncərələri və qapıları da dəyişdirilsin. Hətta yerli sakinlərdən aldığım məlumata əsasən əgər təmir işləri vətəndaşlarda narahatlıq yaradırsa, tikinti işləri bitənədək həmin insanlar müvəqqəti olaraq digər mənzillərdə yerləşdirilir, kirayə pulları da dövlət tərəfindən ödənilir.





Naxçıvanı gəzməklə doymaq olmur. Siyasi və iqtisadi cəhətdən strateji bir yer olan Naxçıvan Muxtar Respublikası sabitlik baxımından da birincidir. Burada, demək olar ki, oğurluq halları yox dərəcəsindədir. Tarixboyu ərənlər yurdu olan Naxçıvandakı yenilikləri, tikinti-quruculuq işlərini gördükdə, bu inkişafa biganə qala bilmirsən. Bilirsinizmi, biz həmişə inkişaf etmiş ölkələrdən nümunə gətirməyi sevirik. Bəs, görəsən, özümüzdə olan gözəlliyi, yaxşı halları niyə sadalamaq istəmirik? Sovetlər birliyi dağıldıqdan sonra Naxçıvan Azərbaycanda yeganə yer idi ki, bütün məktəblilər həmin vaxtdan bu günə kimi də məktəbli forması geyinir. Hətta Naxçıvan ali təhsil ocaqlarında oxuyanlar və təhsil müəssisəsində çalışan müəllimlər də xüsusi forma geyinirlər.

Bu gün yalnız Naxçıvanda istər taksi, istərsə də avtobus sürücüləri xüsusi forma geyinirlər. Mən bu hallara 2008-ci ildə Almaniyada rast gəlmişdim və həmişə də bu halı təbliğ edirdim. Bu gün belə nümunəvi halları bizlər xüsusi olaraq deməliyik. Çünki bəzən bəzi millətini satanlar Azərbaycan, Naxçıvan haqqında yalanlar uydураraq yanlış məlumatlar verirlər.













Naxçıvanın əzəmətli ordusu, ayıq-sayıq hüquq-mühafizə orqanlarının olması bəzi xarici qüvvələrə sərf etmədiyi üçün, bəzən xüsusi olaraq qarayaxma kampaniyası aparılır.

Naxçıvan şəhərində olarkən Yol Patrul Xidməti maşınlarına çox az rast gəldiyim üçün vətəndaşlardan səbəbini öyrəndim. Məlum oldu ki, kameralar vasitəsilə şəhərə nəzarət olunduğuna görə daha küçələrdə sürücü qovmağa ehtiyac duyulmur.

Bəli, bu kimi bir neçə hal mənim kimi əslən naxçıvanlı olanlarda qürur hissi yaşadır. Bütün bu yaxşı hallara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığımızı bildirir və ürəkdən təşəkkür edirik. Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də Prezident cənab İlham Əliyev tərəfindən daha müasir formada davam etdirilən daxili və xarici siyasətimiz Naxçıvan Muxtar Respublikasında özünü daha qabarıq göstərir.

Naxçıvan özündə Şərq və Avropa mədəniyyətini, qədimlik və müasirliyi birləşdirən bir məkandır. Bəlkə də, Naxçıvan yeganə məkandır ki, dünyanın harasında yaşamasından və hansı dövlətin vətəndaşı olmasından asılı olmayaraq, hər bir naxçıvanlı Ali Məclisin Sədri cənab Vasif Talıbova sədrimiz deyir. Bu gün Naxçıvanda aparılan tikinti-quruculuq və abadlıq işlərinə, o cümlədən elm-təhsil, hərbi və digər sahələrdə görülən uğurlu işlərə rəhbərlik edən Ali Məclisin Sədri xalqın ona göstərdiyi etimadı layiqincə doğruldur.

Yaxşı oldu ki, bu dəfə mən sizinlə görüşərək müsahibə verdim. Hər il gələndə Naxçıvanda yeni bir gözəlliklə rastlaşır və geri dönən zaman dostlarımla bölüşürdüm. Bu dəfə isə sizin vasitənizlə fikirlərimi dünyada yaşayan minlərlə insan, o cümlədən naxçıvanlılar oxuyacaq.

Sonda onu demək istəyirəm ki, bu gün Azərbaycanın, Naxçıvanın inkişafını yalnız kor insanlar görə bilməz!

**diaspor.info**
***Naxçıvan bürosu***
***17 mart 2019-cu il***

# Çanaqqala zəfərinin ildönümü qeyd olunub



***Hər il martın 18-də türk xalqının müttəfiq dövlətlərin "Yenilməz Armada"sına qarşı ölüm-dirim savaşında qazandığı Çanaqqala zəfərinin ildönümü Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında qeyd olunur.***

Dünən Çanaqqala zəfərinin 104-cü ildönümü və şəhidləri anma günü münasibətilə Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib.

Əvvəlcə 1918-20-ci illərdə Naxçıvanın erməni daşnakları tərəfindən işğalının qarşısının alınmasında şəhidlik zirvəsinə ucalan qəhrəman türk əsgərlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib, abidə önünə əklil qoyulub.

Mərasimdə Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz çıxış edərək bildirib ki, şəhidlərimizin sarsılmaz Vətən sevgisi və millət olmaq şüuru ən böyük qürurumuz, zənginliyimiz və gücümüzdür. Vətənin torpaqlarını qorumaq üçün ən çətin şəraitdə çəkinmədən canlarını fəda edən əziz şəhidlərimiz qəlbimizdə əbədi yaşayacaq.

Türkiyə Silahlı Qüvvələrinin hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi, polkovnik Yusif Gündoğdu çıxışında qeyd edib ki, Birinci Dünya müharibəsi zamanı – 1915-1916-cı illərdə Osmanlı dövləti ilə Antanta İttifaqı arasında dəniz və quru döyüşləri olub. Osmanlı ordusu ittifaq dövlətləri ilə müqayisədə sayının az, təchizat baxımından isə zəif olmasına baxmayaraq, düşmənin bütün hücumlarını dəf etməyi bacarıb. Türk ordusu bu ağır döyüşdə 253 min şəhid verib. Bu şəhidlər arasında 3 minədək azərbaycanlı könüllü qəhrəmancasına vuruşaraq əbədiyyətə qovuşub. Çanaqqala zəfəri məhv olmaq təhlükəsində olan bir ölkənin şanlı qələbəsidir. Bu zəfər türk millətinin gücünün və sarsılmazlığının ifadəsidir.

Çıxışlardan sonra tədbir iştirakçıları Şəhidlər xiyabanını ziyarət ediblər.

**Nail ƏSGƏROV**

*Naxçıvan Dövlət Universitetində muxtar respublikanın ali təhsil ocaqlarında təhsil alan tələbələrin iştirakı ilə "İdeyadan biznesə" layihəsinin Naxçıvan turunun keçirilməsi ilə əlaqədar seminar olub.*

# Seminar keçirilib



Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov seminarı açaraq bildirib ki, tələbələrin innovativ ideyalarının inkişaf etdirilməsi üçün bu cür layihələrin həyata keçirilməsi çox əhəmiyyətlidir. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə startap ekosisteminin inkişaf etdirildiyini vurğulayan rektor bunun üçün universitetdə gənclərə hər cür şərait yaradıldığını qeyd edib.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov çıxış edərək deyib ki, həyatımızın bütün sahələrində innovativ həllərin tətbiqinin zəruri olduğu bir dövrdə "İdeyadan biznesə" startap layihəsinin həyata keçirilməsi çox uğurlu təşəbbüsdür. Bu layihə ölkəmizdə milli startap infrastrukturunun inkişaf etməsinə, yeni biznes inqubatorların yaradılmasına kömək edəcək və startapçılar arasında əlaqələrin gücləndirilməsinə xidmət göstərəcəkdir. Layihə tələbələrin yaradıcı düşünməsi, yeni ideyaların ortaya çıxarılması, mövcud məsələlərə fərqli yanaşma üslubu kimi potensiallarının üzə çıxarılmasında mühüm rol oynayacaqdır.

Qeyd edək ki, layihə Heydər Əliyev Fondunun, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, həmin nazirliyin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun və Yüksək Texnologiyalar Parkının, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının, "Regional İnkişaf" İctimai Birliyinin, Azərbaycan Respublikasının Gənclər Fondunun, "Azercell" və "Microsoft" şirkətlərinin təşkilatçılığı ilə həyata keçirilir.

Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları Nazim Cəfərli, Rahim İbrahimli, Hüseyn Əsgərli slaydlar vasitəsilə "İdeyadan biznesə" layihəsi barədə seminar iştirakçılarına ətraflı məlumat veriblər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Bakı məktəbliləri Naxçıvan şəhərinin tarixi abidələri, mədəniyyət, təhsil və səhiyyə müəssisələri ilə tanış olublar



Martın 15-18-də “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində Bakı şəhərindən olan məktəblilər Naxçıvan Muxtar Respublikasının tarixi abidələri, mədəniyyət, təhsil və səhiyyə müəssisələri ilə tanış olublar.

Martın 18-də Naxçıvan şəhərindəki Gənclər Mərkəzində bakılı məktəblilərlə görüş keçirilib. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev tur-aksiya iştirakçılarına Gənclər Mərkəzinin fəaliyyəti, burada təşkil olunan tədbirlər barədə ətraflı məlumat verib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov Bakı şəhərindən olan məktəblilərin muxtar respublikaya səfərinin onların bu qədim diyarın tarixi, mədəniyyəti, sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmalarına geniş imkan yaratdığını bildirib, muxtar respublikada təhsilin inkişafı istiqamətində atılan addımlardan bəhs edib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən “Ölkəmizi tanıyaq” tur-aksiyaları böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların dünyagörüşünün formalaşması baxımından böyük əhəmiyyətə malikdir.

Çıxış edənlər tur-aksiya iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib, onlara hədiyyələr təqdim ediblər.

* * *

Həmin gün “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçıları Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar. Onlar səfər təəssüratlarını “Şərq qapısı” qəzeti ilə bölüşüblər.



***Yasamal rayonundakı Akademik Zərifə Əliyeva adına Liseyin 10-cu sinif şagirdi Leyla Hüseynova:*** – “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Naxçıvana gələcəyimi eşidəndə çox sevindim. Çünki bu qədim diyara səyahət etmək çoxdankı arzum idi. Bu istəyimin reallaşması məni ürəkdən şad etdi.

Mətbuatdan öyrənmişdim ki, bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95-ci ildönümüdür. Belə əlamətdar bir ildə muxtar respublika ilə tanış olmaq mənə ikiqat sevinc bəxş etdi.

Buradakı tarixi və mədəni abidələri ziyarət etdik və Naxçıvanın qədim tarixə malik bir diyar olduğunu əyani şəkildə gördük. Naxçıvan şəhərindəki, Ordubad və Culfa rayonları ərazilərindəki tarixi abidələrlə tanışlıq zamanı xalqımızın qədim keçmişi barədə ətraflı məlumat əldə etdik, indiyədək bilmədiyimiz çox şeyi öyrəndik. Bütün şagirdlər adından tur-aksiyanın təşkilatçılarına minnətdarlığımı bildirirəm.

***Səbail rayonundakı Həbib bəy Mahmudbəyov adına 2 saylı texniki-humanitar liseyin 9-cu sinif şagirdi Humay Ağayeva:*** – Tur-aksiya iştirakçısı kimi ümummilli liderimiz Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim Naxçıvan diyarında olmaq məni çox sevindirdi. Tur-aksiya çərçivəsində Naxçıvandakı muzeylər, tarixi abidələr və təhsil ocaqları ilə tanışlıq məndə və məktəbli yoldaşlarımda xoş təəssüratlar oyatdı, ekskursiyalar zamanı çox dəyərli məlumatlara sahib olduq.



Naxçıvanın gözəlliyini, buradakı səliqə-sahmanı və insanların qonaqpərvərliyini gördükdən sonra məndə bu gözəl diyar barədə böyük təəssürat yarandı. Gələcəkdə də bu diyara tez-tez gəlməyi düşünürəm. Burada bizi qarşılayan, qayğımıza qalan insanlar mehriban, qonaqpərvər və səmimidirlər. Bu, məni və yoldaşlarımı çox sevindirdi. Məktəblilərə bu imkanı yaratdığı üçün təşkilatçılara minnətdarlığımı bildirirəm.

***Qaradağ rayon 294 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Xəyyam Rəcəbli:*** – Ölkəmizin qədim diyarı, dahilər yurdu Naxçıvanda olduğum qısa müddət ərzində buranın zəngin və çoxəsrlik tarixi, mədəniyyəti haqqında dolğun məlumatlar əldə etdim. Tarixi abidələr, təhsil və mədəniyyət müəssisələri, Naxçıvanın füsunkar təbiəti, şəhər və kəndlərin gözəlliyi digər şagird yoldaşlarım kimi məndə də xoş hisslər yaratdı.



Möhtəşəm tikililər, xalqımızın şücaət və qəhrəmanlıq rəmzi sayılan Əlincəqala və Qarabağlar türbəsi isə bizi hədsiz dərəcədə heyrətləndirdi. Öyrəndim ki, çoxəsrlik tariximizi özündə yaşadan bu abidələr bərpa olunaraq xalqımıza qaytarılıb. Düşünürəm ki, həmin abidələrin bərpası tarixi keçmişimizə verilən diqqətin ifadəsidir. Bu cür tur-aksiyaların təşkil edilməsi isə biz gənclərin tariximizlə, mədəniyyətimizlə daha yaxından tanış olması üçün böyük fürsətdir. Tədbirlərdə əməyi keçənlərə minnətdarlığımı bildirirəm.

✍ **Nail ƏSGƏROV**
**Tural AĞAYEV**

# Naxçıvanda xalq yaradıcılığı sahələri yeni dövrünü yaşayır

***Doğma diyarımız Naxçıvanda minilliklərboyu təşəkkül tapan adət-ənənələr, xalq yaradıcılığı örnəkləri, milli dəyərlər xalqımızın ən qiymətli sərvətidir. Naxçıvanlılar bu dəyərlərə həmişə böyük ehtiramla yanaşıb, onların qorunub-saxlanılmasını, təbliğini, gələcək nəsillərə ötürülməsini özlərinin vətəndaşlıq borcu sayıblar. Bu gün də həmin vəzifələr ehtiramla yerinə yetirilir.***



Xalq yaradıcılığının yaşadılması, təbliği üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il fevralın 7-də Sərəncam imzalayıb. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi ilə əlaqədar həmin il fevral ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib, müşavirədə müxtəlif aidiyyəti qurumların bu sərəncamla bağlı fəaliyyət istiqamətləri göstərilib, vəzifələr müəyyənləşdirilib.

Ötən dövr ərzində bu istiqamətdə görülən işlər sistemli xarakter alıb. AMEA Naxçıvan Bölməsi tərəfindən hazırlanmış üç cilddə “Naxçıvan folkloru antologiyası”, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış “Naxçıvan teatrının salnaməsi”, nazirliyin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzi tərəfindən hazırlanmış “Naxçıvan milli geyimləri” və “Naxçıvan tikmələri”, Prezident təqaüdçüsü Əkrəm Məmmədlinin “Naxçıvan-Şərur el yallıları” kitabları nəşr olunub, Şərur yallılarından ibarət disk buraxılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Yeri gəlmişkən qeyd edək ki, bu gün muxtar respublikada “Şərur” Xalq Yallı Ansamblı və rayon mədəniyyət şöbələrinin nəzdində 21 yallı qrupu fəaliyyət göstərir. “Şərur” Xalq Yallı Ansamblının fəaliyyəti üçün hər cür şərait yaradılıb, ansamblın ifasından ibarət kompakt disklər hazırlanıb. Bu sahədə görülən işlərin davamı olaraq Ali Məclis Sədrinin tapşırığına əsasən AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparıb, bu irsin UNESCO səviyyəsində qorunması sahəsində tədbirlər həyata keçirib, “Şərur” Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub. 2018-ci il 26 noyabr-1 dekabr tarixlərdə keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilən qərarla “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib.

Folklorun aparıcı qolunu təşkil edən ozan-aşıq yaradıcılığının geniş təbliğ olunması, Naxçıvanda aşıq poeziyasının inkişaf mərhələlərinin araşdırılması davam etdirilir, xalq mahnı və rəqslərinin sistemli şəkildə təbliği, unudulmuş mahnı və rəqslərin bərpa olunması, onların aşkar edilib nota köçürülməsi, həmin nümunələrin folklor rəqs kollektivlərinin repertuarlarına daxil edilməsi və qədim xalq çalğı alətlərində ifaların nümayiş etdirilməsi sahəsində müvafiq tədbirlər görülüb, muxtar respublikanın ayrı-ayrı bölgələrindən toplanan yallı və saz havaları nota salınıb. Bu tədbirlərin davamı kimi muxtar respublikada yaşayan peşəkar və həvəskar aşıqlar haqqında məlumat bazası yaradılıb, 2009-cu il dekabrın 22-dən Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlayıb.

Muxtar respublikanın mədəniyyət müəssisələrində yeni folklor kollektivlərinin yaradılmasına diqqət artırılıb, mədəniyyət müəssisələrinin kollektivlərindən ibarət yeni folklor kollektivləri, folklor və yallı qrupları yaradılıb.

Naxçıvan Dövlət Universitetində xalq çalğı alətləri orkestri, Naxçıvan Musiqi Kollecində Qədim xalq çalğı alətləri ansamblı yaradılıb, unudulmuş qədim musiqi alətlərinin bərpası işinə başlanılıb. Peşəkar musiqi kollektivlərinə, folklor kollektiv və qruplarına, bədii özfəaliyyət kollektivlərinə milli geyim dəstləri verilib. Dövlət tədbirlərində, əlamətdar və tarixi, həmçinin bayramlarda həmin musiqi kollektivlərinin çıxışları təşkil edilir, gənclərdə qədim musiqi alətlərinə maraq oyadılır.

Milli mətbəx nümunələrimiz maddi və mənəvi mədəniyyətimizin





qaynaqları kimi xalqımızın tarixini, etnoqrafiya və bədii xüsusiyyətlərini özündə əks etdirir. Bu sahədə də xeyli iş görülüb, tədqiqat materialları toplanılıb, sorğu-metodik vəsait hazırlanıb. Milli mətbəxin inkişafı ilə bağlı tədbirləri sistemləşdirmək və vahid mərkəzdən idarə etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi fəaliyyətə başlayıb, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin hərtərəfli fəaliyyəti təmin olunub, mərkəz tərəfindən hazırlanmış “Naxçıvan mətbəxi” kitabı oxuculara təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində 2009-cu ilin iyun ayından başlayaraq təşkil edilən xalçaçı, toxuculuq, misgərlik, keçəçi, qalayçı, ağac üzərində oyma kurslarını yüzlərlə gənc bitirib. Qədim tarixə malik olan xalçaçılığın inkişafını təmin etmək məqsədilə adıçəkilən nazirlik tərəfindən “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” layihəsi həyata keçirilir, muxtar respublikanın bütün rayonları üzrə bu sahə ilə məşğul olanlara dəzgahlar və xalça toxumaq üçün lazım olan materiallar verilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixdə imzaladığı Sərəncama əsasən Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikilərək istifadəyə verilməsi bu sahənin daha da inkişafına şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” isə xalçaçılığın inkişafına yeni töhfələrini verməkdədir.

Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı və sənəti ilə məşğul olan şəxslərin iş şəraitinin öyrənilməsi, onlara lazımi köməkliklərin göstərilməsi, muxtar respublikanın bölgələrində xalq sənətinin müxtəlif sahələri ilə məşğul olan sənətkarların əl işlərindən ibarət satış-sərgilərin təşkil olunması məqsədilə müvafiq qurumlarla qarşılıqlı fəaliyyət təmin edilib, xalq yaradıcılığı ilə məşğul olan sənətkarlar haqqında məlumat bazası yaradılıb.

2012-ci ildə, “Milli dəyərlər ili”ndə muxtar respublikada beynəlxalq rəsm, folklor, muğam və xalq teatrları festivalları, ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr keçirilib. Bu tədbirlər indi də davam etdirilir. Belə ki, son illərdə muxtar respublikada “Milli geyimlər”, “Yaradıcı əllər”, “İstedadlı uşaqlar” və “Naxçıvan çörəkləri”, “Plov” və “Yallı”, “Kətə” kimi festivalların keçirilməsi milli-mənəvi dəyərlərimizə böyük diqqət və ehtiramın ifadəsi kimi dəyərləndirilir.

O da xüsusilə vurğulanmalıdır ki, xalqımızın ən əziz bayramı olan Novruz şənliklərində xalq yaradıcılığı nümunələri daha geniş təbliğ olunur. Bunun üçün hər il Naxçıvan şəhərində və rayon mərkəzlərində təşkil olunan Novruz şənliklərində belə nümunələrdən ibarət sərgilərin təşkili, musiqi kollektivlərinin çıxışları bayramı daha təmtəraqlı edir. Naxçıvan Dövlət Filarmoniyasının, Dövlət Uşaq Filarmoniyasının rəqs qrupları, Dövlət Filarmoniyasının Qədim musiqi alətləri ansamblı, Muğam studiyası, Tulum kvarteti, Naxçıvan Musiqi Kollektivinin Sazçalanlar ansamblı, “Yallı” rəqs və “Naxçıvanqala” ritm qrupları, Muğam üçlüyü, Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin Nağaraçalanlar ansamblı və rəqs qrupu, həmçinin digər musiqi kollektivlərinin ifası tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı sahələrinin inkişafına dövlət qayğısı bəhrələrini verməkdədir. Çünki xalqımızın müstəqillik yoluna qədəm qoyduğu indiki şəraitdə xalq yaradıcılığının, əsrlərboyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

✍ **Muxtar MƏMMƏDOV**

# Ocağınız gur yansın!

## Od çərşənbəsi mərasim, ayin, etiqad və şənliklərin zənginliyi ilə seçilir

*Dünyanın yaranmasında iştirak edən təbiətin dörd ünsüründən biri olan od əski çağlardan türklərdə müqəddəs bilinən anlayışlardandır. Naxçıvan Muxtar Respublikasının bölgələrindən toplanmış folklor örnəkləri arasında odla bağlı müxtəlif inanclar mövcuddur. Doğma diyarımızda odla bağlı kiçik janr nümunələrinə daha çox rast gəlmək mümkündür. "Od yanmasa tüstü çıxmaz", "Od qalar köz olar, qız qalar söz olar", "Od qalayıb oda düşmüşük" kimi atalar sözləri, "Çərşənbədə ocağı boş qoymazlar", "Ocaqda kül titrəyəndə od xeyrə oynayar" kimi inanclar, "Ocağın bərəkətli olsun", "Ocağın sönməsin", "Ocağına nur çiləsin" və ya "Oda düşəsən", "Od-ocağa həsrət qalasan" kimi alqış və qarğış nümunələri qədim türk mədəniyyətində od-ocaq anlayışı ilə bağlı arxaik düşüncəni ifadə edir. İlin axır çərşənbəsi – Od çərşənbəsi də Günəşə, oda sitayişdən, odu qoruyub saxlamaq istəyindən yaranıb.*

İlaxır çərşənbə mərasim, ayin, etiqad, oyun və şənliklərinin zənginliyi ilə xüsusilə seçilir, buna "üskü çərşənbə", "üskü gecəsi", "addı çərşənbə", "baca-baca", "yeddiləvin" də deyirlər. Novruz bayramına hazırlıq hələ fevral ayından, yəni elə ilk çərşənbədən başlayıb ilin son çərşənbəsində, Od çərşənbəsində yekunlaşır. Bayram əhval-ruhiyyəsi Azərbaycanda xalq həyatının müxtəlif məqamlarında özünəməxsus şəkildə əks olunur. Belə bir inam var ki, bu gün o qədər şən keçməlidir ki, ilboyu insanlar üçün uğurlu və sevincli olsun.



Muxtar respublikamızda xüsusi təntənə ilə qeyd olunan Od çərşənbəsində bir sıra vacib məsələlərə əməl edilir: bayram süfrəsi açılır, halva, paxlava, şəkərbura, badambura kimi şirniyyatlarla, dadlı çərəzlərlə xonça bəzədilir, qız-gəlinlərə pay göndərilir. Ləziz yeməklərlə yanaşı, hər kəsin evində mütləq plov bişirilir. Xalq arasında plov İlaxır çərşənbənin rəmzi sayılır.

Od çərşənbəsindəki əsas adətlərdən biri həmin gün tonqal qalanmasıdır. Qeyd edək ki, od qalamaq ənənəsi qədim türk etnosunun oda ehtiramı, səcdəsi kimi rəmzi mahiyyət daşıyır. Əvvəllər od üzərindən tullanarkən müxtəlif nəğmələr də ifa olunardı. Novruz bayramı ərəfəsində, xüsusilə də Od çərşənbəsində yurdumuzun hər yerində qaş qaralan vaxt damların üstündə, evlərin həyətində, dağların başında tonqal qalanması, bütün ailənin odun ətrafında toplaşması adəti doğma diyarımızda bu gün də yaşayılır. Yandırılmış odun üstündən "ağırlığım, uğurluğum, dərdim, bəlam bu oda tökülsün", – deyib tullanırlar. "Ağrım, acım səndə qalsın", "Ağrım, dərdim-sərim sənə, sənin sağlamlığın mənə gəlsin" kimi arzu, dilək, alqış-dualar söyləyirlər. İnama görə, odun üstündən tullanan şəxs ilboyu xəstələnməz, dərd, qəm ondan uzaq durar. İlaxır çərşənbədə yandırılan tonqalın tüstüsü arana gedərsə, aranda, dağlıq tərəfə gedərsə, dağlıq ərazidə, əgər düz yuxarı qalxarsa, hər tərəfdə həmin il bolluq olacağına inanırlar. Axır çərşənbədə hər bir ailə çalışır ki, yandırdığı tonqalın alovu hündürə qalxsın.

Qədim diyarımızdakı adətlərdən biri də qalanmış tonqal ətrafında yallı rəqsinin icrasıdır. Məhz Od çərşənbəsində tonqal ətrafında yallı rəqsinin icrası od hamisinə olan inancın qalıqlarını nümayiş etdirir.

Ordubad rayonunda Novruzun ən çox sevilən ərəfəsi – İlaxır çərşənbə "yeddiləvin" adlanır. Yeddiləvin zamanı oğlan evi qız evinə şirni aparır ki, buradakı şirni növünün çoxluğunu göstərmək məqsədilə ona "yeddilövün", "yeddiləvin" adı verilib. Yeddiləvin günü süfrələrə 7 növdə nemətlər düzülür. Ordubad rayonunun bir sıra kəndlərində ilin axır çərşənbəsində yeddi evə yemək aparıb həmin evdən pay alırlar. Bu, xalq arasında "qapı-qapı" adlanır.

Axır çərşənbə adətlərindən biri də yumurta döyüşdürülməsidir. Bu zaman kimin yumurtası qırılarsa, o, sınmış yumurtanı qarşı tərəfə verir. Əsas maraqlı adətlərdən biri də qırmızı rəngdə boyanılmış yumurtalarla insanların bir-birini təbrik etməsi, ailə üzvlərinə cansağlığı diləməsidir.

Axır çərşənbədə od yandırıldıqdan sonra hər kəs süfrə başında əyləşir. Xalq arasında olan inama görə, həmin gün evində olmayan sonrakı yeddi il də evində olmayacaq. Ona görə də hər kəs çalışır ki, həmin gün evində olsun. Axşam düşdükdə oğlan uşaqları evlərə torba atır, ev yiyəsi isə bu torbanı bayram sovqatı ilə doldurub geri qaytarır. Qız-gəlinlər isə həmin gün qaş qaralanda bir yerə toplaşar, gizlicə qonşu evlərə gedərlər. Ayaqlarının altına qıfıl qoyub ürəklərində arzu tutarlar. Həmin arzunun çin olub-olmayacağı ev adamlarından eşitdikləri sözə uyğun yozular. Odur ki, ulularımızın da tövsiyəsinə görə, İlaxır çərşənbədə evdə xeyirli sözlər danışılmalıdır. Qapıpusdu adətinə bəzi yerlərdə "kilidsalma" da deyirlər.

İlaxır çərşənbədə Naxçıvan ərazisində icra olunan adətlərdən biri də danatma mərasimidir. Ordubad rayonundan topladığımız folklor örnəklərinə əsasən mərasim ərazinin gənc oğlan və qızları arasında keçirilir. Bir məhəlləyə toplaşan gənclər bir nəfəri seçərək onu yaxınlıqdakı çeşmədən su gətirməyə göndərirlər. Su gətirməyə gedən gəncə göstəriş verilir ki, o, yolboyu susub danışmamalıdır. Əgər danışarsa, gətirdiyi su təmiz hesab edilməz. Qoyulan şərtin icra olunub-olunmadığını yoxlamaq üçün bir nəfər onu güdər. Əgər şərtə düzgün şəkildə əməl olunubsa, həmin su təmiz hesab edilir, həmin sudan içilir və vəsfi-hal mərasimi üçün istifadə olunur. Eyni zamanda suyu gətirən gənc də mükafatlandırılır. Vəsfihal mərasimi isə ancaq qızlar arasında keçirilir. Təmiz hesab edilən su bir cama tökülür. Cama mərasim iştirakçısı olan qızların üzük, sırğa və digər bəzək əşyaları da atılır. Mərasimi icra edən başçı bayatı oxuya-oxuya əlini cama salır, kimin əşyası camdan çıxarsa, ifa olunan bayatı ilə onun gələcək taleyini "müəyyən edirlər":

*Camda iynə gah gedir,*
*Gah əylənir, gah gedir.*
*Toy gecəsi oğlanın*
*Otağına şax (xonça) gedir.*

Naxçıvan inancları arasında İlaxır çərşənbənin ritual özəlliklərini daşıyan nümunələr olduqca çoxdur. Deyərlər ki, İlaxır çərşənbə gecəsi obaşa yaxın çayın suyu dayanar, söyüdlər başını əyib torpağa dəyər. Bu vaxt hər niyyət yerinə yetər. İlaxır çərşənbədə qızlar əlində güzgü tutarlar. Ayın şəkli düşər güzgüyə. Şəklin içində oğlan əksi görünsə, sevdiyi oğlana gedər, – deyərlər.

Xalq arasında yaşadılan ən maraqlı adətlərdən biri də axır çərşənbənin səhəri günü Günəş çıxmamışdan su üstə getmək adətidir. İlk növbədə, insanlar səhər tezdən çay, bulaq kənarına gedər, əl-üzlərini yuyar, sudan bir az da içərlər. İnama görə, bu su dərdlərin dərmanıdır, içən xəstələr şəfa tapar. "Çərşənbə suyu"ndan insanlar arasında bir-birinin üstünə çiləmə adəti də icra olunur. Su aydınlıq, paklıq, təmizliyə çıxmaqdır. Həmin gün evdə bütün su qablarını boşaldıb yerinə "çərşənbə suyu" doldururlar. Sudan çörək bişirmək üçün xəmrə tuturlar. "Çərşənbə suyu"ndan gətirib bir gün saxlayıb, sonra əkin sahəsinə səpirlər. "Çərşənbə suyu"ndan Novruz bayramı günü yandırılan tonqalın külünün üzərinə səpirlər ki, həm ürəklər sərinləşsin, həm də şər qüvvələr evdən kənarlaşsınlar. Bulaq üstünə gedən qız-gəlinlər bulağın gözündən yeddi daş götürürlər. Götürülən daşları yağ küpələrinə, unluqlara, pul kisələrinə qoyurlar ki, bərəkətli olsun.

İlaxır çərşənbədə qalanmış ocağın külündən götürüb suya tökərlər. Naxçıvandan toplanmış digər inancda isə deyilir ki, ilaxırda qalanan odun külünü səhər yığıb yağış yağan novdanın altına tökmək lazımdır. Tökəndən sonra arxana baxmadan getməlisən.

Ulu babalarımızın belə bir müdrik kəlamı var: "Od ocaqda yanar". Od-ocağı hər zaman müqəddəs sayan, ziyarətgah, abad yurd yeri, həyat nişanəsi kimi böyük mənada işlədən xalqımızın bu müdrik deyimində də ifadə olunduğu kimi, Vətənə sevgi, yurda bağlılıq, yurddaşlarına yanarlılıq, qurub-yaratmaq, tarixi yaşatmaq kimi ülvi bir məram olan yerdə od-ocaq da daha gur şölələnər, el də öz əziz bayramını şən ovqat, yüksək əhval-ruhiyyə ilə qarşılayar!

***"Türkün alqışı alqışdır", – deyən ulularımızın hikmətli söz xəzinəsindən aldığımız alqışlara qoşularaq deyirik ki, Od çərşənbəmiz mübarək olsun! Ocağımız sönməsin! Ulu Tanrı ocağımızdan ruzi-bərəkəti əskik etməsin, tonqallarımız Vətən torpağında hər zaman gur yansın!***

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

*Dünən Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının iclası keçirilib.*

## Atıcılıq Federasiyasının iclası keçirilib



Yığıncağın gündəliyində Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının fəaliyyəti və federasiyanın yeni sədrinin seçilməsi olub.

Tədbiri giriş sözü ilə muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov açaraq bu gün muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində idmanın maddi-texniki bazasının möhkəmləndirilməsindən, bu sahənin inkişafı və kütləvi hal alması üçün yaradılan hərtərəfli şəraitdən ətraflı bəhs edib.

Nazirliyin aparat rəhbəri Canməmməd Canməmmədov çıxışında qeyd edib ki, Atıcılıq Federasiyası işini günün tələblərinə uyğun qurmayaraq, yaradılan şəraitdən, infrastrukturdan düzgün istifadə etməyi bacarmayıb. Federasiyanın yığma komandası formalaşdırılmayıb, idmançıların Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin edilməyib, keçirilən muxtar respublika səviyyəli yarışlarda keyfiyyət və təşkilatçılıq aşağı səviyyədə olub, rayonlarda federasiyanın bölmələri yaradılmayıb.

Sonra Azad Cabbarov Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilmiş Səhət Həbibbəylinin Atıcılıq Federasiyasına sədrliyinə namizədliyini irəli sürüb. Təklif yekdilliklə qəbul olunub və Səhət Həbibbəyli Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının sədri seçilib.

Yeni seçilən federasiya sədri çıxış edərək bildirib ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində bütün sahələrdə olduğu kimi idman sahəsində də ardıcıl işlər görülür. O, Atıcılıq Federasiyasının bundan sonrakı fəaliyyətini günün tələbləri səviyyəsində quracağını, gənclərin idmana cəlbinə diqqətlə yanaşacağını deyib.

Sonda federasiya sədri yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Bu bayram da süfrələrimizdə bolluq olacaq




Xalqımızın mənəvi aləminin zənginliyini bütün incəlikləri ilə əks etdirən Novruz bayramının əsas atributlarından biri də bayram süfrəsidir. Bir neçə ildir ki, Naxçıvan şəhərindəki Mərkəzi bazarda təşkil olunan ənənəvi bayram yarmarkası da süfrələrimizdə əsl bayram bolluğu yaradır, Novruzu layiqincə keçirməyə imkan verir.

Biz də bu bayram ərəfəsində, mart ayının 16-dan başlayaraq Mərkəzi bazarda keçirilən yarmarkaya üz tutduq. Qələbəlik və məhsul bolluğu olan yarmarkada alıcı və satıcılarla görüşüb həmsöhbət olduq.

Naxçıvan şəhər sakini Pərvanə Quliyeva bildirdi ki, bayram üçün almaq istədiyimiz məhsulların hamısına burada rast gəlmək olar. Qiymətlər də münasibdir. Sevindirici haldır ki, belə keyfiyyətli məhsulların hamısı yerli istehsaldır. Odur ki, builki Novruz bayramında da süfrələrimizi öz məhsullarımız bəzəyəcək.

Digər həmsöhbətimiz Şərur rayonunun Cəlilkənd sakini, 27 yaşlı ailə təsərrüfatçısı Sənan Qasımzadə yarmarkaya mürəbbələr, turşular, müxtəlif çeşiddə məhsullar çıxarıb. O gətirdiyi məhsullara alıcılar tərəfindən böyük maraq göstərildiyini deyir.

Bir-birindən ləziz görünən, səliqə ilə qablaşdırılmış şirniyyatları piştaxta üzərinə düzən Sədərək rayon sakini 19 yaşlı gənc təsərrüfatçı Jalə Abbasova deyir ki, bayram yarmarkasının təşkili həm biz torpaq mülkiyyətçilərinə, həm də alıcılara əlverişli şərait yaradır, istehsalçılardan rüsum alınmır. Belə şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Alıcılardan biri, şəhər sakini, təqaüçü-müəllim Zahirə Cəfərova ilə elə piştaxta önündəcə həmsöhbət olduq. O dedi ki, ötən illə müqayisədə qiymətlərdə artım yoxdur. Bazarda təklifi artırmaqla və tələbi daha dolğun ödəməklə qiymətlərin aşağı salınmasına nail olunub. Daha doğrusu, qiymətlər bazarlarda yaradılan bolluğa uyğun formalaşıb.

Məlumat üçün bildirək ki, şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınması məqsədilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda Novruz bayramı münasibətilə keçirilən bayram yarmarkası mart ayının 24-dək davam edəcək. İlk gün yarmarkaya muxtar respublikada fəaliyyət göstərən 32 istehsal müəssisəsi tərəfindən 117 adda 195 çeşiddə məhsul çıxarılıb. Eyni zamanda 262 ailə təsərrüfatı subyekti tərəfindən 168 adda məhsulun satışı təşkil olunub.

✍ **Gülcamal TAHİROVA**


## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***I. Kafedra müdiri vəzifələri üzrə***

1. Pedaqogika və psixologiya kafedrası
2. İncəsənət kafedrası.

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

***II. Kafedralardakı digər vəzifələr üzrə***

1. Dillər və ədəbiyyat:
- Baş müəllim – 1 yer (1 ştat)
- Baş müəllim – 1 yer (0,5 ştat)

2. Ali riyaziyyat və informatika:
- Baş müəllim – 1 yer (0,5 ştat)

***III. Ümumi fənlər***

- Baş müəllim – 2 yer (0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Mövcud əsasnaməyə görə müsabiqədə iştirak etmək istəyənlər sənədlərini rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 1.***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: 545-32-02***
***Rektorluq***



ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1495. Sifariş № 210